KİM-nin direktoru Adilə Abdullayeva

Abdullayeva Adilə Tariyel qızı 1983-cü il avqust ayının 12-də Bakı şəhərində anadan olmuşdur. 2000-ci ildə Bakı şəhəri 129 saylı orta məktəbi fərqlənmə attestatı ilə bitirdikdən sonra həmin ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinə daxil olmuş, 2004-cü ildə bakalavr, 2006-cı ildə magistratura səviyyəsini fərqlənmə diplomu ilə bitirmişdir.

2008-2012-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının doktorantı (qiyabi) olmuş, 2017-ci ildə isə M.Füzuli adına Əlyazmalar İnstitutunda 3356.01-"Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" ixtisasında yaradılmış Birdəfəlik Dissertasiya Şurasında "Cəmiyyətdə informasiya mədəniyyətinin formalaşmasında kitabxanaların iştirakı" adlı dissertasiya işini müdafiə etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 17 noyabr 2017-ci il tarixli (protokol №29-K) qərarına əsasən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Təhsilini davam etdirməklə bərabər 2006-cı ildən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında kitabxanaçı, böyük kitabxanaçı, bölmə müdiri kimi vəzifələrdə, 2011-2019-cu illərdə Kitabxanaların metodik təminatı şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

2019-cu ilin mayından etibarən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Kitabxana İnformasiya Mərkəzinin direktoru vəzifəsini icra edir.

Şöbə müdiri kimi respublikada və xarici ölkələrdə fəaliyyət göstərən qabaqcıl kitabxanaların iş təcrübəsini və yenilikləri öyrənməklə region kitabxanalarına tətbiqinə metodik köməklik göstərmişdir. Regionlarda kitab bayramlarının təşkil edilməsində, hərbi hissədə əsgərlərlə görüşlərdə, zona seminar-müşavirələrində iştirak etmişdir. Həmçinin Milli Kitabxana tərəfindən kitabxana işinin müxtəlif fəaliyyət istiqamətlərinə, aktual problemlərə dair nəşr edilən "Şuşa həsrəti" (2007), "Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu" (2011), "Azərbaycan maarifinin yorulmaz carçısı. Həsən bəy Zərdabi-170" (2012), "Milli kitabxananın nəşrləri" (2013), "Kənd kitabxanalarının müasir dövrün tələblərinə uyğun fəaliyyətinə dair təlimat" (2015), "İnnovativ kitabxana-informasiya xidməti" (2016), "Açıq kitabxananın fəaliyyətinin əsas istiqamətləri" (2016), "Mütaliə mədəniyyəti, kitabla rəftar və kitabxanadan istifadə qaydalarına dair metodik tövsiyələr", "Mütaliə mədəniyyəti və kitabxana xidməti (2010-2016): Daycest" (2017), "Naxçıvan-İslam mədəniyyətinin paytaxtıdır" (2018), "Cəlil Məmmədquluzadə-150" (2018) adlı bir sıra metodik vəsaitin müəllifi, 20-dən çox nəşrin redaktoru, illik nəşr edilən "Əlamətdar və tarixi günlər"

təqviminin tərtibçisi və redaksiya heyyətinin üzvü, Milli Kitabxananın Elmi əsərlərinin redaksiya heyətinin, 2015-ci ildə çap olunmuş ilk Azərbaycan Kitabxana Ensiklopediyasının hazırlanması üzrə işçi qrupun üzvü, eyni zamanda Azərbaycan Milli Kitabxanasının Elmi Şurasının üzvü olmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin işçi qrupunun tərkibində regionlarda dəfələrlə mədəniyyət müəssisələrinin fəaliyyətinin araşdırılması və təhlilində iştirak etmişdir.

Bir sıra regionlarda yeni kitabxanaların açılışında məsləhətçi-ekspert kimi çalışmışdır:

2010, 13-15 aprel- Astara rayonu Heydər Əliyev Mərkəzinin Elektron kitabxanasını təşkil etmiş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə elektron kitabxananı təqdim etmiş;

2012, 09-10 fevral-Qusar rayonu Heydər Əliyev Mərkəzinin Elektron kitabxanasını təşkil etmiş;

2013, avqust-Şəmkir rayonu Heydər Əliyev Mərkəzinin Elektron kitabxanasının təşkilində ekspert kimi iştirak etmiş;

2016, 23-27 avqust- rəsmi müraciətə əsasən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxanasında struktur islahatı aparılması məqsədilə kitabxanaya metodik tövsiyə və təkliflər hazırlayıb təqdim etmişdir.

Beynəlxalq təcrübə: bir sıra ölkələrdə elmi-konfrans, vorkşop və simpoziumlarda iştirak etmişdir:

2010, 16-19 yanvar - İran İslam Respublikasının Milli Kitabxanası və Arxivi tərəfindən təşkil edilmiş *"Audiovizual sənəd irsinin mühafizəsi və ona girişin təmin edilməsi" adlı* I Beynəlxalq Dünya yaddaşı treyninq-vorkşop;

2011, 23-25 sentyabr - "Kitab - əməkdaşlıq və inkişaf yolu"adlı Türkmənistanda təşkil edilmiş VI Beynəlxalq kitab sərgi-yarmarkası;

2012, 17-18 dekabr- Ankarada Türkiyə Milli Kitabxanasında TÜRKSOY təşkilatı ilə birgə M.F.Axundzadənin 200 illik yubileyinə həsr olunmuş beynəlxalq simpozium;

2013, 17-27 noyabr- Malayziya Milli Kitabxanasında "Kitabxanaçılar üçün Kitabxana İdarəetmə Kursu" adlı ongünlük treyninq;

2014, 23-25 aprel- Özbəkistanın Karşi vilayətində "Mərkəzi Asiya: Elm, təhsil, mədəniyyət və biznesdə internet və kitabxana-informasiya resursları" adlı beynəlxalq konfrans;

2014, 9-10 dekabr- Sankt-Peterburq şəhərində Rusiya Milli Kitabxanasında "Milli kitabxana və onun oxucusu: transformasiya problemləri" mövzusunda beynəlxalq konfrans.

2014-cü ildən etibarən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində 3 fənn: “Kitabxana-informasiya resursları”, “Sənədlərin biblioqrafik təsviri”, “Kitabxana fondunun təsnifatı” üzrə (ingilis qrupu) saathesabı dərslər aparır.

Həm respublika, həm də beynəlxalq elmi jurnallarda Azərbaycan, rus və ingilis dillərində onlarla elmi məqalələri və konfrans materialları çap edilmişdir.

“Mədəni-tarixi dəyərlər sistemində informasiya mədəniyyəti və kitabxanalar” adlı monoqrafiyası hazırda çapdadır.

Təltiflər:

2013-cü il 25 sentyabr tarixində Azərbaycan Milli Kitabxanasının səmərəli fəaliyyətinin təmin edilməsinə görə **Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Fəxri Fərmanı** ilə təltif edilmişdir.